**Ellada Məmməd qızı Balayeva**
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dissertantı*
ellada.balayeva@bsu.edu.az

# "ELM" NƏŞRİYYATININ YARANMASI VƏ XX ƏSRİN 40-50-Cİ İLLƏRİNDƏ ELMİ KİTABIN NƏŞRİ SİSTEMİNDƏ ONUN YERİ

*Məqalə "Elm" nəşriyyatının yaranması və ilk illərində fəaliyyətinə həsr edilmişdir. Burada müharibədən sonrakı illərdə Azərbaycanda kitab nəşrinin ümumi sistemi öyrənilmiş və həmin sistemdə "Elm" nəşriyyatının yeri müəyyənləşmişdir. Məqalədə nəşriyyatın fəaliyyəti nəticəsində meydana gələn kitab məhsulunun tematik-tipoloji təhlili aparılmışdır. Burada göstərilir ki, "Elm" nəşriyyatının əsas vəzifəsi təkcə sənədləri çap etməkdən ibarət deyil, həm də lazım olan sənədləri başəriyyətin xidmətinə verməkdir. Tədqiqat zamanı nəşriyyatın yaranması tarixinə toxunulması tarixi aspektdən mühüm əhəmiyyət kəsb edir. Məqaləyə əlavə edilən statistik göstəricilər, qurulan diaqramlar onun elmi əhəmiyyətini artırır.*

***Açar sözlər:*** "Elm" nəşriyyatı, kitab, nəşr, nəşr sistemi, tipoloji təhlil, elmi kitab, elmi informasiya, kitabın tipi

**Giriş.** Müasir dövrdə elm bir çox fəaliyyət sahələrinin universal obyektinə çevrilmişdir. Bu elmin müasir sivilizasiyada oynadığı xüsusi roldan irəli gəlir. İstehsal sahəsinə və insan fəaliyyətinin bir çox digər sahələrinə, XX əsrdə texnoloji tərəqqinin təbiətinə inqilabi təsir göstərən elm, dolayısı ilə Qərbin və Şərqin inkişaf etmiş ölkələrində yeni bir həyati keyfiyyətə səbəb oldu və təbiət, cəmiyyət, insan fəaliyyəti dünyanın elmi mənzərəsinin təsiri altında formalaşmağa başladı. Həqiqətən də, elm empirik varlığı baxımından çox mürəkkəb və ziddiyyətli bir obyektdir. Bu həm elmin tarixi varlığına (diaxronik aspektə), həm də indiki vəziyyətinə (sinxron aspektinə) aiddir. Buna görə də elm məqsədyönlü, çox prosesli, strukturlaşdırılmış bir fəaliyyət sahəsi olmaqla konkret bir məqsədə, bir obyektə, fəaliyyət vasitəsinə malikdir.

Elmi fəaliyyət insanların təcrübi fəaliyyətində yaranır və inkişaf etdikcə yeni obyektlərin formalaşmasında təcrübəni qabaqlamağa başlayır. Bununla da elm insanın dünyanı mənimsəməsi və ona uyğunlaşma təcrübəsi kimi, ətrafdakı reallıqla insanın qarşılıqlı təsirinin bütün metod və nəticələrinin cəmi kimi başa düşülən daha geniş bir reallığın - mədəniyyətin üzvi bir elementinə çevrilir və klassik elm sona çatır.

Yeni elm dünyaya xüsusi anlayışların meydana gəlməsi (fraktal, bifurkasiya, kəsilmə, dövrilik, cazibə, fəza məkanı) kompleks sistemlərin davranışı ilə bağlı ümumi nəticələrin çıxarılmasına imkan verən suallara gətirib çıxardı. Bu suallar ətrafında aparılan tədqiqatlar elmi informasiyanın yaranması ilə nəticələndi və elmi informasiyanı özündə əks etdirən elmi kitabların nəşrini, xüsusilə Azərbaycanda ciddi problemə çevirdi.



Azərbaycanda elmi informasiyanın nəşri problemi XX əsrin ikinci yarısında daha ciddi hal almağa başlamışdı. Belə ki, bu illərdə müharibədən qalib olaraq ayrılan ölkədə poliqrafiya və kitab nəşrinin inkişafı sahəsində qarşıya yeni vəzifələr qoyulmuşdu. Çünki müharibə nəticəsində ölkədə kitab nəşri azalmış, onun ad və tiraj göstəricisi xeyli aşağı düşmüşdü. Məsələn 1940-cı ildə SSRİ-də 45,8 min adda 462,2 milyon nüsxə kitab çap olunmuşdur. 1954-cü ildə bu rəqəmlər müvafiq surətdə 184 min ad, 298 milyon nüsxəyə enmişdi. (4, s. 154)

Nəşriyyatlarda uçot və nəşriyyat işlərinin düzgün aparılmaması, kitab nəşrinin plan üzrə həyata keçirilməməsi kitab nəşri sahəsində özbaşnalığa, əsassız ləngimələrə və ayrılan maliyyə vəsaitlərinin təyinatı üzrə xərclənməməsi ilə nəticələndi. Kitab nəşri sahəsində yaranmış problemlərin həlli, kitabların bədii və poliqrafiya tərtibatında olan nöqsanların aradan qaldırılması, kitab məhsulunun maya dəyərinin düzgün hesablanması, kitab satışının düzgün təşkili məqsədilə 1945-ci il iyul ayında "Kitabın poliqrafiya tərtibatı haqqında", 1946-cı il noyabrın 28-də "Azərbaycan SSR-də poliqrafiya sənayesini və nəşriyyat işini inkişaf etdirmək tədbirləri haqqında", 1948-ci il avqustun 2-də "Azərbaycan SSR-də kitab ticarətini yaxşılaşdırmaq haqqında", 1950-ci il 25 may tarixində "Kənddə kitab satışını yaxşılaşdırmaq tədbirləri haqqında", 1958-ci il dekabrın 10-da "Düzgün olmayaraq bahalı kitablar buraxılması haqqında" və s. qərarlar qəbul edildi.

Bu tədbirlərin nəticəsi özünü kitab nəşrinin həcminin artımında göstərməyə başladı. Belə ki, əgər ölkədə 1940-cı ildə 1.141 min adda kitab çap olunurdusa, 1950-ci ildə bu rəqəm 1030 adda kitab 7.957 min nüsxə tiraja qədər azalmışdır. Görülən tədbirlərdən sonra 1959-cu ildə kitab nəşri müvafiq olaraq 1.144 min ad və 10. 286 min nüsxə olmuşdur. Onlardan 988 adda və 7.890 min nüsxə kitab Azərbaycan dilində idi. (6, s. 130- 131)

Kitab nəşrinin inkişafını təkcə kəmiyyət artımı ilə izah etmək məqsəduyğun deyil. Çünki müharibədən sonra kitab nəşrinin mövzu əhatəsi xeyli genişlənmişdi. Kitab nəşrinin mövzu istiqaməti təkcə müharibə deyil, ölkə daxilində həyata keçirilən təsərrüfat, siyasi və mədəni quruculuq işlərinin ümumi səviyyəsi ilə də izah edilirdi. (4, s. 160) Beləki, 1950-ci ildə ictimai-siyasi ədəbiyyat 288 adda kitab olmaqla ilk yerdə durdurdusa, 1959-cu ildə bu rəqəm 244 adda kitab olmaqla öz yerini ədəbiyyatşünaslıq və bədii ədəbiyyata vermişdir. *(Bax. Cədvəl 1; Qrafik 1)*

***Cədvəl 1. 1950-1959-cu illərdə ölkədə kitab nəşrinin məzmunu***

| İllər üzrə | 1950 | 1955 | 1959 |
|---|---|---|---|
| İctimai-siyasi | 288 | 144 | 237 |
| Ədəbiyyatşünaslıq. Bədii ədəbiyyat | 209 | 181 | 244 |
| Texnika. Sənaye. Nəqliyyat. Məişət təsərrüfat | 131 | 111 | 217 |
| Mədəniyyət. Elm | 91 | 104 | 70 |
| Kənd təsərrüfatı | 95 | 145 | 93 |

| | | | |
|---|---|---|---|
| **Təbiət** | 80 | 94 | 91 |
| **Səhiyyə və tibb** | 41 | 48 | 60 |
| **Cəmi** | **1030** | **955** | **1144** |

*Cədvəl hesabat materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir (6, s.132-133)*




**Qrafik 1.** ***1950-1959-cu illərdə ölkədə kitab nəşrinin məzmunu***




**Qrafik 2. 1950-1959-cu illərdə kitab nəşrinin inkişafı**

Qrafik 2-dən məlum olur ki, 1950-ci ildə kitab nəşrində artım müşahidə edilsə də, 1955-ci ildə kitab nəşri azalma ilə xarakterizə edilmişdir.

1959-cu ildə nəşr olunan ədəbiyyatın 24%-ni Ədəbiyyatşünaslıq və bədii ədəbiyyat, 76%-ni texnika, sənaye, nəqliyyat və məişət təsərrüfatına, ictimai-siyasi elmlərə, kənd təsərrüfatına, mədəniyyətə dair elmi və faktoqrafik informasiyanı özündə əks etdirən ədəbiyyat əhatə edirdi. *(Bax. Qrafik 3)* Eləcə də 1959-cu ildə nəşr olunan ədəbiyyatın 70%-i azərbaycan dilli ədəbiyyat idi və bu kitabların 80%-i özündə elmi informasiyanı əks etdirirdi.






**Qrafik 3. Kitab nəşrinin tərkibi (1959-cu il)**

**Əsas hissə.** Azərbaycanda elmi ədəbiyyatın nəşri işi Azərbaycan Milli Elmlər Akademiyasının nəşriyyat fəaliyyəti ilə təmin edilirdi. Bu fəaliyyət 1939-cu ilə qədər Tədqiq və Tətəbbö Cəmiyyəti nəznində fəaliyyət göstərən şöbə tərəfindən həyata keçirilirdi. 1939-cu ildən bu iş Elmlər Akademiyasının Azərbaycan Filialı Nəşriyyatı yanında həyata keçirilməyə başladı. (3, s. 205) 1945-ci ildə "Elm" nəşriyyatının yaradılması ilə elmi ədəbiyyatın nəşri işi mərkəzləşdirilmiş və daha koordinasiyalı şəkildə yerinə yetirilməyə başladı. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti aparatının nəzdində fəaliyyət göstərən nəşriyyat əsasən elmin müxtəlif sahələrinə dair monoqrafiyalar, elmi məcmuələr, lüğətlər (terminoloji, ikidilli və çoxdilli), klassiklərin çoxcildlik əsərlərini, elmi-kütləvi kitabçalar, elmi jurnallar, biblioqrafik ədəbiyyatın nəşrini həyata keçirməklə (7) Azərbaycanda elmi ədəbiyyatın nəşri üzrə ixtisaslaşdırılmış ilk və yeganə nəşriyyat hesab olunur. (5, s. 13)

Yarandığı gündən bir çox elmi jurnalların nəşrinə başlayan nəşriyyat bu gün də 14 adda elmin jurnalın nəşri işini davam etdirir. Belə ki, 1945-ci ildən başlayaraq çap olunan "AMEA-nın Məruzələri"ndə AMEA-nın həqiqi üzvlərinin (akademik), müxbir üzvləri və xarici üzvlərinin əvvəllər heç yerdə çap olunmayan orijinal elmi tədqiqatlarının nəticələri çap edilir. (7)

Yarandığı ilk illərdə, daha dəqiq desək 1945-1959-cu illərdə nəşriyyat tərəfindən 50-ə yaxın adda ədəbiyyat çap edilmişdir. Belə ki, 1947-ci ildə "Nizami Gəncəvi (Məqalələr məcmuəsi)", 1949-cu ildə M.H.Təhmasibin tərtibçiliyi ilə 484 səhifə həcmində "Koroğlu" dastanı və Məhəmməd Füzulinin "Əsərləri"nin ikinci cildi, Karl Marksın "Kapital" əsərinin Azərbaycan dilinə tərcüməsinin birinci nəşri işıq üzü görmüşdür.

1950-ci ildə isə nəşriyyatda "Azərbaycan incəsənəti toplusu"nun ikinci cildinin və "İncəsənət" almanaxının, 1951-ci ildə A. Bakıxanovun "Gülüstani-İrəm" əsərinin, Bretanskinin "Azərbaycan memarlığı abidələri" əsərinin, "Azərbaycan maddi mədəniyyəti" çoxcildliyinin ikinci cildinin çapı həyata keçirilmişdir. Sonuncu əsərin üçüncü cildi 1953-cü ildə işıq üzü görmüşdür. Həmin ildə A.Y.Qazıyevin "Xalq rəssamı Əzim Əzimzadə" adlı əsəri, 1954-cü ildə "Ədəbiyyat və dil institunun əsərləri"nin VII cildi, 1955-ci ildə K.Talıbzadənin "Abbas Səhhət" adlı əsəri, 1956-cı ildə F.Qazımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" adlı əsəri, Ə.Mirəhmədovun "Abdulla Şaiq" adlı əsəri, Əfrasiyab Bədəlbəylinin "Musiqi lüğəti" əsəri, S.V.Əliyevin "Azərbaycanın zərərli sovkaları və onlarla mübarizə", "Xalq şairi Səməd Vurğun" adlı toplu, 1957-ci ildə "Azərbaycan ədəbiyyatı tarixi" 3 cildliyinin üçüncü cildi, M.Abdıyevin "Şirvan düzü torpaqlarının şorlaşması və onunla mübarizə tədbirləri" adlı əsəri, M.S. Şirəliyevin "Bakı dialekti" əsəri, X.Əlimirzəyevin "Azərbaycan kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən (1930-1934-cüi illər)" adlı əsəri, H.Əliyevin "Türkiyə Lozan konfransında" adlı əsəri, 1958-ci ildə M.Füzulinin "Seçilmiş əsərləri"nin 3 cildi, H.Araslının "Böyük Azərbaycan şairi Füzuli" adlı əsəri, "Muzeyin ekspozisiyası üzrə bələdçi" nin birinci buraxılışı, 3 cildlik "Azərbaycan tarixi"nin birinci cildi, M.Quluzadənin "Nizami Gəncəvi" əsəri, "Məcməül Xəvas" əsəri, Ə.M. Dəmirçizadənin "Azərbaycan ədəbi dilinin inkişaf yolları" adlı əsəri, İ.Q. Nərimanovun "Gəncəçay rayonunun arxeoloji abidələri" adlı əsəri, 1959-cu ildə O.H. Həbibullayevin "Kültəpə arxeoloji qazıntıları" adlı əsəri, C.Ə. Xəlilovun "Qərbi Azərbaycanın tunc və ilk dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri" adlı əsəri, B.Y.Axundovun "İnqilabdan əvvəlki Bakı neft sənayesi inhisarçı kapitalizm" adlı əsəri, "Azərbaycan incəsənəti" almanaxının VII cildi, M.H.Tərtibçiliyi ilə "Koroğlu" dastanının təkrar nəşri, M.C.Cavanşirin "Qarabağ tarixi" adlı əsəri, "Azərbaycan kimya jurnalı"nın 1-6 buraxılışları, 1960-cı ildə T.Ə. Bünyatovun "Azərbaycan arxeologiyası oçerkləri" adlı əsəri, "Azərbaycan ədəbiyyatı tarixi" 3 cildliyinin ikinci cildi, M.Hüseynin tərtibçiliyi ilə "Səməd Vurğunun əsərlərinin" 6 cildliyinin birinci cildi, S.Rüstəmovun "Azərbaycan SSRİ-nin çayları və göllərinin hidroloji xüsusiyyətləri" adlı əsəri, İki hissəli "Azərbaycan dilinin qrammatikası"nın birinci hissəsi, Z.Göyüşovun "Azərbaycan maarifçilərinin etik görüşləri: XIX əsrin II yarısı" adlı əsəri, İ.Əliyevin "Midiya tarixi" adlı əsəri, F.M. Əliyevin "Şimali Azərbaycan şəhərləri" adlı əsəri çap edilmişdir.

Nəşriyyatın iş təcrübəsinə müraciət etdikdə məlum olur ki, nəşriyyat tərəfindən xarici dilli ədəbiyyatın da nəşri həyata keçirilmişdir. Belə ki, nəşriyyatda 1952-ci ildə A.A. Babayevin "Müasir türk dramaturgiyasının sosial motivləri" adlı əsəri rus dilində 1470 nüsxə tirajla çapa verilmişdir.

Elm nəşriyyatının ilk illərdə fəaliyyəti müxtəlif tipli və növlü nəşrlərin çapı ilə müşahidə edilirdi. İlk öncə qeyd edək ki, kitabların tiplərə bölünməsinin əsasında nəşrin məqsəd və oxucu təyinatı durur. Kitabların oxucu təyinatı dedikdə, həmin ədəbiyyatın müəyyən oxucu qrupu üçün yaradıldığı başa düşü-



lür. Oxucu təyinatına görə kitabların bölgüsü yaranır. Bu bölgünün əsasını oxucunun yaşı, sənəti və ixtisası təşkil edir. Məzmununa görə təsnifləşdirilmiş ədəbiyyat növlərinin hər biri məqsəd və oxucu təyinatına görə bir neçə tipi özündə birləşdirir. (1, s. 290)

Məqsəd və oxucu təyinatından, yerinə yetirdiyi funksiyadan, məlumatın həcmi və xarakterindən, nəşrin məzmunundan, tərtibat və nəşrin formasından və s.asılı olaraq kitab növündə olan nəşrlər tiplərə bölünür. Kitabın aşağıdakı tipləri vardır:

1. Elmi ədəbiyyat və yaxud elmi kitablar;
2. Bütün təlim növləri üzrə tədris ədəbiyyatı və yaxud tədris kitabları;
3. İstehsalat və təlimat ədəbiyyatı və yaxud istehsalat və məlumat kitabları;
4. Soraq-məlumat ədəbiyyatı;
5. Rəsmi sənəd ədəbiyyatı;
6. Elmi-kütləvi ədəbiyyat. (1, s. 292)

Kitab tipləri içərisində mühüm yer tutan elmi ədəbiyyat tarixən ilkin yaranan kitab tipidir. Elmi ədəbiyyatın böyük əksəriyyəti görkəmli alimlərin əsərləri külliyatı, çoxcildli əsərlər, seçilmiş əsərlər, ayrı-ayrı əsərlər, məcmuələr şəklində çapdan buraxılır. Əsərlər külliyatı, seçilmiş əsərlər akademik nəşrlər şəklində hazırlanır və çapdan buraxılır. Onu da qeyd etməliyik ki, bu mürəkkəb quruluşa malik olan külliyatlarda, yəni seçilmiş əsərlərdə, xüsusilə akademik nəşrlərdə yazıçının, şairin, alimin bütün ədəbi və elmi irsi, hətta əsərlərinin variantları, müxtəlif mövzulu məktubları və s. öz əksini tapır. (1, s. 367) Bəzən səhvən akademiyaların nəzdində olan nəşriyyatların çap etdiyi kitabları akademik nəşr adlandırırlar. (2, s.21)

Beləliklə 1945-1959-cu illərdə nəşriyyat tərəfindən çap edilən nəşrlərin tipoloji təhlili zamanı məlum olur ki, 34 adda monoqrafiya, 4 adda bədii əsər, 1 jurnal, 1 toplu, 1 almanax, 6 akademik nəşr, 1 məqalələr məcmuəsi, 2 soraq nəşri çap edilmişdir. *(Bax. Cədvəl 2; Qrafik 4)*

Məzmununa görə monoqrafiyaların 1-i sosial elmlərə, 2-i iqtisadiyyata, 1-i etnoqrafiyaya, 1-i memarlığa, 1-i rəssamlığa, 2-si kənd təsərrüfatına, 6-sı tarixə (onlardan biri dünya tarixi), 3-ü dilçiliyə, 4-ü arxeologiyaya, 14-ü ədəbiyyata, 1-i coğrafiyaya, 1-i torpaqşünaslığa, toplu və almanax incəsənətə, akademik nəşrlər bədii ədəbiyyata, məqalələr məcmuəsi ədəbiyyatşünaslığa, soraq nəşrləri isə 1-i lüğət olmaqla musiqi, 1-i bələdçi olmaqla muzey fəaliyyətinə aiddir.

Nəşriyyatın ilk illərdə fəaliyyəti nəticəsində işıq üzü görən kitabların 38%-i ədəbiyyatşünaslığa, 16%-i tarixə, 11%-i arxeologiyaya, 8%- dilçiliyə aiddir. Yerdə qalan 27% isə özündə iqtisadiyyat, etnoqrafiya, memarlıq, rəssamlıq, kənd təsərrüfatı, torpaqşünaslıq, coğrafiya, iqtisadiyyat, sosial elmləri əhatə edir. *(Bax. Qrafik 5)*

*Cədvə 2. Nəşr fəaliyyətinin həcmi*

| Nəşrin tipi | Sayı |
|---|---|
| Elmi kitab | 34 |
| Bədii kitab | 4 |
| Jurnal | 1(6 buraxılışı) |
| Toplu | 1 |
| Almanax | 1 |
| Akademik nəşr | 2 (3 cild+2 cild) |
| Məqalələr məcmuəsi | 1 |
| Soraq nəşri | 2 |

*Cədvəl müəllif tərəfindən tərtib edilmişdir*




***Qrafik 4. Nəşr fəaliyyətinin həcmi***






***Qrafik 5. Nəşr olunan elmi kitabların məzmununa görə tərkibi***

**Nəticə və elmi yenilik.** "Elm" nəşriyyatının yarandığı gündən ilk illərdə fəaliyyəti ilə bağlı aparılan araşdırma nəticəsində məlum olur ki, nəşriyyatın fəaliyyətinin ilk illərində 50-yə yaxın ədəbiyyat çap edilmişdir. Bu kitabların əksəriyyəti tipinə görə monoqrafiyaları, akademik nəşrləri, topluları, almanaxları əhatə edir. Bu kitabların 90%-i azərbaycan dilində olan nəşrlərdir. Məzmununa görə isə kitabların 69%-i elmi informasiyanı özündə əks etdirir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı.**


1. Allahverdiyev B. Kitabşünaslığın əsasları. Monoqrafiya, Bakı, Uniprint, 2011, 446 s.,
2. Azərbaycan kitabxana ensiklopediyası/Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, M.F. Axundzadə adına Milli Kitabxana.- Bakı,- 2015.- 632 s.
3. Balayeva E. Elm nəşriyyatının yaranması və fəaliyyəti// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və praktiki jurnal.- Bakı, 2019. № 1.- s. 204-209.
4. Həsənov H.B. Azərbaycan kitabının inkişaf mərhələləri.- Bakı: Azərnəşr, 1989.- 255 s.
5. Sadıq İ. "Azərnəşr" və Azərbaycanda kitab nəşri/ Ədalət qəzeti.- Bakı, 3 oktyabr 2020-ci il.- s. 13
6. Культурное строительство Азербайджанкой ССР: Статистический сборник.- Баку: Азербайджанское отделение Госстатиздата, 1961.- 148 с.
7. https://az.wikipedia.org/wiki/24.11.2020

**Балаева Эллада**

**Создание издательства "элм" и его место в системе издания научной книги в 40-50-х гг. Хх века**

**Резюме**

*Статья посвящен созданию и деятельность издательства "Элм" в первые годы. Здесь была изучена общая система книгоиздания в Азербайджане в послевоенные годы и определено место издательства "Элм" в этой системе. В статье также приводится тематико-типологический анализ книжного продукта, который появился в результате деятельности издательства. Здесь говорится, что главная задача издательства "Элм" - не только печатать документы, но и предоставлять необходимые документы на службу человечеству. Прикосновение к истории издательства во время исследования важно с исторической точки зрения. Статистические показатели и диаграммы, прилагаемые к статье, повышают ее научную значимость.*

***Ключевые слова:*** издательство "Элм", книга, издание, издательская система, типологический анализ, научная книга, научная информация, тип книги.

**Ellada Balaeva**

**Establishment of the publishing house "elm" and its place in the scientific book publishing system in 40-50 yy. of xx century**

**Summary**

*The article is devoted to the creation and activities of the publishing house "Elm" in the early years. Here was studied the general system of book publishing in Azerbaijan in the post-war years and was determined the place of the publishing house "Elm" in this system. The article also provides a thematic and typological analysis of the book product, which appeared as a result of the publishing house's activities. It says here that the main task of Publishing House "Elm" is not only to print documents, but also to provide the necessary documents for the service of humanity. Touching the history of the publishing house during research is important from a historical point of view. Statistical indicators and diagrams attached to the article increase its scientific significance.*

***Key words***: Publishing house "Elm", book, publication, publishing system, typological analysis, scientific book, scientific information, book type.

**Rəyçi:** p.ü.f.dok.,dos. N.İ.İsmayılov